# Qırğız ədibin kitabı ana dilimizdə

**Dekabr ayında dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatovun anadan olmasının 95 illiyi ölkəmizdə geniş qeyd ediləcək. Yubiley ərəfəsində yazıçı-tərcüməçi Nəriman Əbdülrəhmanlının çevirməsində görkəmli ədibin "Dağlar yıxılanda" adlı nəsr toplusu işıq üzü görüb.**




Qırğızıstan Respublikasının ölkəmizdəki səfirliyində toplunun təqdimatı keçirilib. Mərasimdə yazıçının oğlu, Beynəlxalq Çingiz Aytmatov Fondunun prezidenti Eldar Aytmatov da iştirak edib.

Qırğızıstanın Bakıdakı səfiri Kayrat Osmanaliyev ölkələrimiz arasında dostluq və tərəfdaşlıq münasibətlərinin inkişafından və mədəni əlaqələrin möhkəmlənməsindən söz açıb. O, böyük ədibin yaradıcılığına Azərbaycanda göstərilən marağı yüksək qiymətləndirib, yeni kitabın yazıçının yubileyinə dəyərli töhfə olduğunu vurğulayıb.

Nəriman Əbdülrəhmanlı çıxışında Çingiz Aytmatovun Azərbaycanı özünün ikinci Vətəni saydığını, ölkəmizdə böyük ədibin əsərlərinin çox sevildiyini, Qırğızıstan səfirliyinin dəstəyi ilə işıq üzü görən yeni nəşrin də maraqla qarşılanacağını əminliklə bildirib.

Ədibin oğlu Eldar Aytmatov yeni nəşrin onun atasının xatirəsinə sonsuz hörmət nişanəsi olduğunu bildirib, tərcüməçiyə və səfirə təşəkkür edərək, hər ikisinə Çingiz Aytmatov adına Beynəlxalq İssık-Kul Forumunun xatirə medalını təqdim edib.

TÜRKSOY-un Azərbaycan təmsilçisi Elçin Qafarlı Çingiz Aytmatovun 95 illik yubileyinin Azərbaycanda keçirilməsini və kitabın nəşrini türk xalqlarının mənəvi birliyinə verilən sanballı töhfə adlandırıb.

Qeyd edək ki, "Qanun" nəşriyyatında nəfis şəkildə nəşr olunmuş kitaba yazıçının sonuncu "Dağlar yıxılanda" romanı, "Üz-üzə" povesti və hekayələri daxil edilib. Kitabın rəyçisi filologiya elmləri doktoru, professor Bədirxan Əhmədli, mətndəki şeirlərin tərcüməçisi Nurafiz, redaktoru isə İlqar İlkindir.

***Ə.ƏLİYEV***
***XQ***

Xalq qəzeti.- 2023.- 21 sentyabr.- S.10.